Ədalət .- 2025.- 2 may(№16).-S.14.



***Baxşeyiş ABBASOĞLU***

# DÜNYANIN GÖZÜNƏ OX OLAN ŞƏHƏR

*(Xalq şairi Zəlimxan Yaqubun*
*"Ağdam Qarabağın toy otağıydı" şeirinə)*

(Poema)

Qarabağ düzündə bir şəhər vardı,
Tanrının verdiyi sərvətdi, vardı,
Qocası, cavanı nə bəxtiyardı,
Torpağı, daşı da qızıl, ləl, gövhər!
Dünyanın gözünə ox olan şəhər!

Qarabağın anasıydı bu şəhər,
Sonaların sonasıydı bu şəhər
Tarix boyu qalasıydı bu şəhər,
Onun mayasıydı igidlik, hünər!
Dünyanın gözünə ox olan şəhər!

Köksündə Pənahın türbəsi vardı,
Kəhər, köhlənlərin nal səsi vardı,
Ulu babaların nəfəsi vardı,
"İmarət" qalası tunclaşmış əsər!
Dünyanın gözünə ox olan şəhər!

Adı Ağdam idi ulu şəhərin,
Hər kəsə açıqdı yolu şəhərin,
Vətənin bükülməz qolu şəhərin,
Qızları qeyrətli, oğlanları nər!
Dünyanın gözünə ox olan şəhər!

Ağdam-Vətənimin qeyrət qalası!
Baxıb görənlərin heyrət qalası!
Yurdumun ucalan şöhrət qalası!
Kasıbı, varlısı tox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Vətən torpağının nur parçasıydı,
Tanrımızın gözəllik boxçasıydı,
Mərdlik, kişiliyn bir qalasıydı,
Bütün varlığıyla canlı bir əsər!
Dünyanın gözünə ox olan şəhər!

Kölgəsi Vətənin üstünə düşən,
Adın eşidəndə yağı büzüşən,
Hər günü büsatla, toyla ötüşən,
İnsanı fərəhdən boğurdu qəhər!
Dünyanın gözünə ox olan şəhər!

Günəşə oxşayar, Aya bənzərdi,
Adı musiqini, sözü bəzərdi,
Şöhrəti dodaqda, dildə gəzərdi,
Barlı bağçasında meyvə, bar-bəhər!
Dünyanın gözünə ox olan şəhər!

Qışı da oxşardı, bahara, yaya,
Yetərdi, qaçardı hamı haraya,
Karlı kişiləri gəlməzdi saya,
Ümidlə açardı burda hər səhər!
Dünyanın gözünə ox olan şəhər!

Adının qorxusu dil qurudardı,
Adının qoxusu dərd ovudardı,
Vuran igidləri at oynadardı,
Ərən oğulları bir-birdən betər!
Dünyanın gözünə ox olan şəhər!

Mərdlik, qoçaqlığın ocağı idi,
Gözəlliyin ucu, bucağı idi,
İlahi, dünyanın xoş çağı idi,
Bilmirdin kim ağa, kim idi nökər!
Dünyanın gözünə ox olan şəhər!

Vətənin solmayan gülüzarıydı,
Vur deyənlə vuran burda yarıydı,
Yalan sözə qulaqlar da karıydı,
Əsla ayaq tutub yeriməzdi şər!
Dünyanın gözünə ox olan şəhər!

Burda muğam üstə ağlayardılar,
"Segah"a qoşulub çağlayardılar,
"Şur" ilə ürəyi dağlayardılar,
Yerindən tərpənən ötürdü "Şüştər!
Dünyanın gözünə ox olan şəhər!

Loğman idi bu yerlərin havası,
Can dərmanı xoş musiqi avazı,
Doxsan yaşayardı yaşayan azı,
Ölən də olurdu burda bəxtəvər!
Dünyanın gözünə ox olan şəhər!

Ağsaqqal-ağbirçək durardı başda,
Böyuklük, kiçiklik olardı başda,
Dost sanırdı səni doğma qardaş da,
Elliklə olurdu burda xeyir-şər!
Dünyanın gözünə ox olan şəhər!

Yaşayıb-yaşadan möcüzə idi,
Özü boyda qızıl bir kuzə idi,
Sanki cahan ilə üz-üzə idi,
Şöhrəti dünyadan çox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Sevib yaşayırdıq bu şəhərdə biz,
Onunla vururdu nurlu qəlbimiz,
Bitib-təkənməzdi sevgi, eşqimiz,
Onsuz bizə həyat olardı zəhər!
Dünyanın gözünə ox olan şəhər!

Burda oxuyardı daş da, ağac da,
Ona bağlı idi varlı, möhtac da,
Şanlı-şöhrətindən doyardı ac da,
Canını edərdi Ağdama sipər!
Dünyanın gözünə ox olan şəhər!

Bir dəfə görənlər aşiq olurdu,
Baxıb gözəlliyə aşıq olurdu,
Deməyə ürəyi sözlə dolurdu,
Tayı-bərabəri yox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

Muğamın, sənətin, sözün məkanı,
Halalın, doğrunun, düzün məkanı,
Gözəl insanların ədəb-ərkanı,
Dodaqlarda əzbər, dillərdə əzbər!
Dünyanın gözünə ox olan şəhər!

Harda eşidəndə o şanlı adın,
İstərdin uçmağa olsun qanadın,
Yeri başda idi, qonağın, yadın,
Hörməti bol idi kim etsə səfər!
Dünyanın gözünə ox olan şəhər!

Baldan şirin idi ləhcəsi, dili,
Necə xoş gəlirdi hər gələn ili,
Bəy kimi yaşardı obası, eli,
Sənə ya göz dəydi, ya da ki, nəzər!
Dünyanın gözünə ox olan şəhər!

Yurdumun səngəri, qalası-Agdam!
Adın ürəklərdə qalası-Ağdam!
Vətənin ərköyün balası-Ağdam!
Düşmənin önündə sən oldun səngər!
Dünyanın gözünə ox olan şəhər!
Dünyanın gözünə ox olan şəhər!

**3 mart 2025-ci il.**